# Müdrik dövlət xadimi, qayğıkeş ana, vətənpərvər ziyalı

***Azərbaycan qadını tarixən xalqımızın müqəddəs dəyərlərinin daşıyıcısı kimi dövlətimizin siyasi, iqtisadi və mədəni həyatına böyük töhfələr verib. Bu gün də həmin ənənə davam edir. Azərbaycan qadını özünün yüksək intellekti, müdrikliyi, vətənpərvərliyi, işgüzarlığı ilə fərqlənir, cəmiyyətimizin yüksəlişinə xidmət edən proseslərdə yaxından iştirak edir.***



Bu baxımdan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti ən gözəl nümunədir. Azərbaycan qadını onun timsalında dünyada ən müsbət keyfiyyətləri özündə birləşdirən bir obraz kimi xarakterizə olunur. Ümumiyyətlə, Mehriban xanımın fəaliyyəti, onun daxili zənginliyi, həyata baxışı, proseslərə yanaşması hər bir Azərbaycan qadını üçün örnəkdir. Humanizm, vətənpərvərlik, dərin intellekt, milli-mənəvi dəyərlərə bağlılıq, bütün insanlara, ən əsası isə cəmiyyətin həssas təbəqələrinə sevgi və mərhəmət Mehriban xanımın şəxsi portretinin əsas cizgiləridir.

Mehriban xanım indiyədək təmsil olunduğu bütün platformalarda Azərbaycan qadınının timsalında xalqa xidmət missiyasının ən möhtəşəm nümunələrini yaradıb. Rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun həyata keçirdiyi tədbirlər bütün dünyada mədəniyyətimizi uğurla təbliğ edib. Heydər Əliyev Fondu isə artıq 18 ildir ki, ümid ünvanı kimi tanınır, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırır, milli mədəniyyətimizin, genefondumuzun qorunmasına və inkişafına töhfələr, sağlam nəslin yetişməsinə təkan verir, uşaq evlərinin, təhsil müəssisələrinin yenidən qurulmasında yaxından iştirak edir.

2005-2017-ci ci illərdə Milli Məclisin deputatı olan Mehriban xanım Əliyevanın parlamentarizm ənənələrinin inkişafında xüsusi xidmətləri var. Məhz Mehriban xanımın rəhbəri olduğu dostluq qrupları Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynayıblar.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən beynəlxalq forumlar sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində həm də qadınların rolunun artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu platforma vasitəsilə mədəniyyətlər və sivilizasiyalararası dialoq probleminə qadınların gözü ilə baxılması, bu məsələdə onların mövqeyinin qabardılmasının əhəmiyyətinə diqqət çəkən Azərbaycanın birinci xanımı deyir ki, qadın olan yerdə həmişə səmimiyyət və sevgi var: "Qadın olan yerdə düşmənçiliyə, qarşıdurmaya, nifrətə yer yoxdur. Qadınlar əzəldən bəri dialoq tərəfdarıdırlar. Məhz ona görə, qadın potensialı dialoqun möhkəmlənməsində böyük rol oynaya bilər." Azərbaycan qadını da bu gün qlobal miqyasda dialoqun möhkəmlənməsində iştirak edir, eyni zamanda, ictimai-siyasi fəallığını artırmaqla, cəmiyyətimizin inkişafı, dövlət quruculuğu prosesinə töhfələr verməkdədir.

Mehriban Əliyeva həm də Azərbaycan idmançılarının dostudur. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban Əliyevanın səmərəli fəaliyyəti Azərbaycan idmanının inkişafına layiqli töhfələr verir. Artıq bütün dünya AGF-nin fəaliyyətinə qiymət verib. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi, gimnastikaya göstərdiyi diqqət və qayğı sayəsində Azərbaycan dünyanın gimnastika mərkəzinə çevrilib. Olimpiya Oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir.

Bütün bunlarla yanaşı, Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri də uğurla yerinə yetirərək, Azərbaycanın beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət etməkdədir. "Eurovision" mahnı müsabiqəsində olduğu kimi, ilk Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında da Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Azərbaycanın idman ölkəsi kimi beynəlxalq nüfuzu daha da möhkəmləndi.

Beş il əvvəl – 2017-ci ilin fevral ayından isə Mehriban Əliyevanın fəaliyyətində yeni missiya başlayıb. Həmin il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi cəmiyyətin bütün təbəqələrinin təqdir etdiyi qərar oldu. Vətənə sədaqət, milli dəyərlərə hörmət və uğurlu fəaliyyət Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdir. Birinci vitse-prezident kimi də Mehriban xanım fəaliyyəti ilə Prezident İlham Əliyevin siyasi kursunun uğurla reallaşmasında fəal iştirak edir. O, ilk gündən mühüm sosial məsələləri nəzarətə götürüb. 2016-cı ilin Aprel döyüşlərində bədən xəsarətləri almış qəhrəman hərbçilərimizin protezlərlə təmin olunması, Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi Mehriban Əliyevanın Birinci vitse-prezident kimi uğurlu fəaliyyətinin təcəssümüdür.

COVID-19 pandemiyasının yaratdığı gərgin günlərdə də Mehriban Əliyevanın bu probleme həssas münasibətinin şahidi olduq. İnsanların sağlamlığına qayğı ilə yanaşmalarına dair Mehriban xanımın müraciətləri, Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən xeyriyyəçilik aksiyaları minlərlə insana maddi və mənəvi dəstək oldu.

Ümumiyyətlə, ölkəmizdə xüsusi həssas əhali qrupları ilə işləmək, onların problemlərinin həllinə dəstək olmaq Mehriban xanım Əliyevanın fəaliyyətinin prioritetini təşkil edir. Bu işdə gündəlik sosial ehtiyacların qarşılanması, həssas təbəqəyə qayğı və nəvaziş ən vacib missiya kimi həyata keçirilməkdədir. Xanım Mehriban Əliyeva deyir ki, hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm fəaliyyətini qurur, həmin cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir.

Biz Mehriban xanımın şəxsiyyəti fonunda həm də qayğıkeş ana obrazını görürük. Onun cəmiyyətin hər bir üzvünə, xüsusilə də uşaqlara, həssas qrupa ana qayğısı hər kəsi təsirləndirir. Ümumiyyətlə, hər bir qadın üçün ailəsi onun həyatının ən vacib, ən mühüm hissəsidir. Mehriban xanım hər zaman qeyd edir ki, "ailə mənim üçün, istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir".

Biz Mehriban xanımın simasında həm müdrik bir qadın, qayğıkeş ana və peşəkar idarəçi – bir sözlə, ideal qadın obrazının bütün keyfiyyətlərini görürük. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının peşəkar idarəçilik bacarığı, eyni zamanda, yüksək səviyyəli intellekt və ədalət nümunəsi görürük.

Mehriban xanımın həm də dünya mədəni irsinin mühafizəsinə dəstəyi beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə İtaliyada Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası dünya mədəni abidələr irsinə töhfə oldu. Bu layihənin icrası xristian aləminin müqəddəs abidələrinə müsəlman dünyasının töhfəsi kimi qiymətləndirilir. Belə ki, müsəlman ölkəsində fəaliyyət göstərən Heydər Əliyev Fondunun xristian aləminin incəsənəti və mənəvi dəyərlərinə verdiyi bu töhfə Roma tarixində ilk hadisə kimi tarixə düşüb. Bu isə ölkəmizin dinlər və mədəniyyətlər arasında oynadığı tarixi roldan qaynaqlanır. Eyni zamanda, Heydər Əliyev Fondu Luvr, Versal Sarayı, Strasburq Kafedral kilsəsi, digər tarixi abidələrin bərpasında iştirak edib. Mehriban Əliyevanın humanist və bəşəri dəyərlərin qorunmasına xidmət edən fəaliyyəti beynəlxalq miqyasda da böyük rəğbətlə izlənilir, təqdir olunur.

44 günlük Vətən müharibəsində isə Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi humanist missiyanın davamı idi. Vətən müharibəsindən sonra Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurdakı tarixi və milli abidələrimizin bərpası ilə bağlı həyata keçirdiyi layihələr isə bir daha xanım Mehriban Əliyevanın Vətən sevgisinin ifadəsidir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***